HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 aprel 2017-cı il
№007 (45)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN BİRGƏ HƏRBİ TƏLİMLƏRİNİN KEÇİRİLMƏ VAXTI BƏLLİ OLUB



Türkiyə, Azərbaycan və Gürcüstan növbəti dəfə birgə hərbi təlimlər keçirəcəklər.

Hərbi təlimlərin cari ilin 4-14 iyun tarixində keçirilməsi nəzərdə tutulur.

“Qafqaz qartalı” adlı hərbi təlimlərdə hər üç ölkənin Silahlı Qüvvələrinə məxsus xüsusi təyinatlı hissələrin iştirakı gözlənilir.

Təlimlər təcrübə və bilik mübadiləsi, habelə xüsusi təyinatlıların operativ potensialının gücləndirilməsi məqsədi daşıyır.

Xatırladaq ki, bu formatda təlimlər artıq iki dəfə keçirilib.

Hərbi təlimlər Türkiyədə keçiriləcək. Bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müvafiq sərəncam imzalayıb.

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ GÜRCÜSTAN GÖMRÜK RƏHBƏRLƏRİ BAKIDA GÖRÜŞƏCƏKLƏR

May ayında Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan gömrük xidmətləri rəhbərlərinin görüşü keçiriləcək.

Bu barədə Azərbaycan Dövlət Gömrük Komitəsinin sədr müavini Şahin Bağırov Bakı-Tbilisi-Qars layihəsinin gömrük məsələləri üzrə üçtərəfli texniki görüşündə deyib.

Şahin Bağırov qeyd edib ki, bu görüşdə dəmiryolu dəhlizinin istismara verilməsindən sonra gömrük orqanlarının fəaliyyət formaları müəyyən ediləcək. O, əlavə edib: “Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi üzrə işlərin böyük əksəriyyəti artıq görülüb, Gürcüstan və Türkiyə ərazisində cüzi işlər qalıb. Bu da yaxın aylarda başa çatacaq. Mayda Bakıda gömrük orqanları rəhbərlərinin görüşü baş tutacaq və müvafiq memorandum imzalanacaq”.

## NATO-NUN BAŞ KATİBİ YENS STOLTENBERQİN GÜRCÜSTANA SƏFƏRİ GÖZLƏNİLİR



NATO-nun baş katibi Yens Stoltenberq cari ilin mayında Alyansın Parlament Assambleyasının işində iştirak etmək üçün Tbilisiyə səfər etməyi planlaşdırır. Bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Gürcüstan-NATO xalq diplomatiyası Forumunun açılışında bildirib.

NATO Parlament Assambleyasının yaz sessiyası mayın 26-29-da Tbilisidə keçiriləcək. Bununla da, Gürcüstan assambleyanın keçirildiyi NATO-ya üzv olmayan sayca beşinci ölkə olacaq.

Kvirikaşvili deyib: “Bizim üçün böyük şərəfdir ki, Gürcüstanda NATO Parlament Assambleyası keçirilir və bu tədbir çərçivəsində NATO-nun baş katibinin səfəri planlaşdırılır”.

## TBİLİSİDƏ NATO-GÜRCÜSTAN XALQ DİPLOMATİYASI FORUMU KEÇİRİLİB

Tbilisidə ikigünlük NATO-Gürcüstan xalq diplomatiyası forumu işinə başlayıb.

Forumda Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili, Avropa və Avro-Atlantik strukturlara inteqrasiya üzrə dövlət naziri Viktor Dolidze və NATO baş katibinin xalq diplomatiyası üzrə müavini Takan İldem çıxış edib.

Aprelin 11-də isə foruma Gürcüstan prezidenti Georgi Marqvelaşvili də qatılıb.

Tədbir çərçivəsində NATO və Avropa İttifaqı nümunəsində təhlükəsizlik problemlərinə qarşı xalq diplomatiyasının rolu, hibrid müharibələrnin yeni çağırışları, təbliğata, kibermüharibəyə və s. qarşı mübarizə strategiyaları kimi mövzular üzrə müzakirələr keçirilib.

## GÜRCÜSTAN PREZİDENTİ PARLAMENTDƏ ƏNƏNƏVİ MƏRUZƏ İLƏ ÇIXIŞ EDİB

Prezidentin məruzəsini Baş Nazir Georgi Kvirikaşvili və hökumətin bir çox üzvü, habelə Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin sədrləri, Abxaziya və Acara Muxtar Respulikalarının rəhbərləri və Tbilisidə akkreditasiya olunmuş əcnəbi diplomatlar dinləyiblər.

Marqvelaşvili 29 dəqiqə davam edən çıxışını 2016-cı ilin parlament seçkilərində Konstitusiya çoxlu qazanmış “Gürcü arzusu – demokratik Gürcüstan” partiyasının seçkilərdən sonrakı fəaliyyəti barədə söhbətlə başlayıb. Prezident qeyd edib ki, yeni Konstitusiya çoxluğunun yaranması “hakimiyyətin təmərküzləşməsi təhlükəsi” törədir, lakin eyni zamanda “cəsarətli islahat və təşəbbüslər” üçün imkan yaradır.

Marqvelaşvili seçkilərdən beş ay sonra “güman edilən təhlükənin ciddi problemə çevrildiyini, islahat dinamikasının isə nəzərə çarpmadığını” – vurğulayıb. “Kədərlidir ki, hakim siyasi qüvvə əməli olaraq dialoqdan imtina edib” – o, bildirib.

Prezident onun Parlamentdəki çıxışından sonra siyasi debatların keçirilməsini alqışlayıb.



O, bütün seçicilərin prezidenti olduğunu, eyni zamanda bunu siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün nazirlərdən və deputatlardan da gözlədiyini vurğulayıb. O, deyib: “Qalib gəlmiş qüvvənin düşmən yox, müttəfiqlər axtarmağa başlayacağı zamanı gözləyirəm, inanıram ki, siyasətçidə ən yüksək ambisiya ölkənin və cəmiyyətin birləşdirilməsi olmalıdır”.

## HÖKUMÜT 3-4 İL ƏRZİNDƏ İNFRASTRUKTUR LAYİHƏLƏRİNƏ 10 MİLYARD LARİ XƏRCLƏMƏK NİYYƏTİNDƏDİR

Biz gələcək 3-4 il ərzində infrastruktur layihələrinə 10 milyard lariyə yaxın pul xərcləmək niyyətindəyik. Bu barədə hökumətin iclasında baş nazir Georgi Kvirikaşvili bildirib.

Baş nazir artıq cəmiyyətə 2500 infrastruktur layihələrinin təqdim olunduğunu vurğulayıb.

Kvirikaşvili deyib: “Hansı miqyasda işlər gördüyümüzdən xəbəriniz var. Biz gələcək 3-4 il ərzində infrastruktur layihələrinə 10 milyard lariyə yaxın pul xərcləmək niyyətindəyik. Bu ölkəmizin fiziki görünüşünü dəyişmək üçün mühüm prosesdir, çünki bu proqramların həyata keçirilməsi nəticəsində Gürcüstanın istənilən nöqtəsində bütün əsas xidmətlər mümkün olacaq. Qısa vaxt ərzində hazırlıq işləri həyata keçirilib. Regional inkişaf və infrastruktur naziri Zurab Alavidze və onun idarəsi çox yaxşı işləyib. Düşünürəm ki, bu istiqamət çox böyük nəticə verəcək, çünki 40 minə yaxın



yeni iş yeri yaradılacaq. Həm də ölkəmiz özünün geostrateji tranzit funksiyasını daha yaxşı yerinə yetirəcək. Bu işlər başlayır və mən infrastruktur nazirliyinə və bütün nazirlər kabinetinə uğurlar arzulayıram, çünki bu, 4 bəndlik planlarımızın ən mühüm tərkib hissəsidir”.

PREZİDENTİN TƏQDİM ETDİYİ GERÇƏK MƏNZƏRƏ 2

AVRONUN ÜZƏRİNDƏKİ RƏMZLƏR NƏYİ İFADƏ EDİR? 3

SURİYA SİYASƏTİNDƏ ABŞ-IN ATDIĞI QƏFİL ADDIMLAR 4

MÜBARƏK AYLAR VƏ GÜNLƏR 5

CƏMİYYİTİMİZİN QADIN SÜRÜCÜLƏRƏ MÜNASİBƏTİ 6

MİRZƏ MƏMMƏDOĞLUNUN ÖMÜR YOLUNA BİR BAXIŞ 7



## PREZİDENTİN TƏQDİM ETDİYİ GERÇƏK MƏNZƏRƏ

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Evin tikilsin prezident yiyəsi, nə müxalifət tanıyır, nə iqtidar. Bu zalım oğlunun ağızından qan tökülür, od-alov püskürür. Qabağına keçənə ürəyindən keçəni guppuldadır. Düzünə qalsa, "dişinin dibindən çıxanı" deyir kimi bir əcayib ifadə işlətmək istəyirdim. Amma sizdən nə gizlədim, özümü güclə saxlayıb, bu istəyimi dilimi dişimlə sıxaraq, içimdəcə boğmağın daha doğru bir zad olduğunu qətiləşdirdim. Nədən ki, bunun şərəf və ləyaqət məsələsinə haykırı kimi yozulacağı düşüncəsi ilə fikrimdən daşındım. Üstəgəl də, belə bir ifadənin prezidentin dilinə, elə şəninə yaraşmayacağı qənaətilə valı dəyişib bir qədər yumşaq, miyanə ifadə qullanmanın doğruluğuna özümü inandırdım.**

Hə, onu qulluğunuza ərz etmək istəyirdim ki, balam, bizim bu prezident – Marqvelaşvilidən danışdığımın fərqində olduğunuzu adım kimi bilərəm – nə qoçaq adam imiş. Nə iqtidardan çəkinir, nə müxalifətdən. Kişi kimi sözünü deyir. Sübutmu istəyirsiniz? Aranızda skeptiklərin, şəkkakların olduğunu ovcumun içi kimi bildiyimdən gərək cənab prezidentin aprelin 7-də ölkə parlamentində söylədiklərindən bir neçəsini dəlil olaraq diqqətinizə çatdıram. Bunu etməsəm, mən cəhənnəm, prezidentmizə də dodaq büzənlər olacaq.

Bəri başdanca ərz edim ki, prezidentimizin 29 dəqiqəlik məruzəsi cəmiyyətin müxtəlif təbəqələri tərəfindən birmənalı şəkildə qarşılanmayıb. Niyə? İndi niyəsini əfəndimə söyləyim ki, cənab Marqvelaşvili məruzəsində boğazdan yuxarı bircə kəlmə də olsa söz işlətməyib. Onun məruzəsində cəmiyyətimizin, hökumətimizin, dövlətimizin nəyi var – yaxşısı yaxşı, yamanı yaman – səsləndirilib. Əslində "səsləndirilib" burada yerinə oturmayan deyimdir, bunun əvəzinə "təhlil edilib" və ya bir az da siyasətşünas kimi görünmək üçün "analiz edilib", ən azından "təhlil süzgəcindən keçirilib" deməyim daha ədəbli olardı və yazımın üslubuna da xələl gətirməzdi.

Söhbətin bu yerində bir-ikinizin az qala ürəyinizin yerindən çıxdığını bilirəm və onu da bilirəm ki, bu yerdə "prezidentimiz nə dedi, nə danışdı" kimi suallar verib rahatlanmaq istəyirsiniz. Amma əslində siz sualı "nəyi demədi, nədən danışmadı" şəklində qoymalısınız ki, mətləbə yaxınlaşmaqda mənə də yardımçı olasınız.

Prezidentimiz məruzəsində həyatımızın bu və ya digər sahələrinə, qarşımızda durub həllini gözləyən bir sıra problemlərimizə diqqət yönəldib. Cənab Marqvelaşvili öncə ölkəmizin əsas qanununda – Konstitusiyada ediləcək dəyişikliklərlə əlaqədar fikrini səsləndirib. Bu sahədə gözlənilən dəyişikliklərin kiminsə diqtəsi və ya arzusu ilə həyata keçirilməsinin yolverilməz olduğunu bildirib. O, Gürcüstan prezidentinin xalq tərəfindən seçilməsinə tərəfdar olduğunu söyləyib və bu arada deyim ki, mən də bu fikirdəyəm. Bu münasibətlə prezidentin səsləndirdiyi fikirlərə diqqət yetirmənizi rica edirəm: "Prezident seçmək qaydası bugünkü və ya sabahkı prezidentin, bugünkü və ya dünənki baş nazirin istəklərinə uyğunlaşdırılmamalı, əksinə xalqın gerçək tələbatına və real balanslaşdırılmış Konstitusiyaya müvafiq olmalıdır".

Ölkəmizin iqtisadi həyatını dəyərləndirən Marqvelaşvili bu sahədə mövcud olan neqativ və pozitiv məqamlara toxunub. İqtisadiyyat haqqında danışan prezident bəyan edib ki, "əsas problemlər həll olunmamış qalır". O, əlavə edib: "Biz hələlik elə dövlət yaratmamışıq ki, bir adam da küçədə yaşamasın; azyaşlı uşaqlar küçədə yaşayıb işləməsinlər; on minlərlə uşaq yoxsulluq həddində yaşamasın; qocaların əlacsızlıq duyğusu olmasın; orada heç kim ac qalmasın, heç kim üşüməsin". O, bu sahədə xeyli problemlərin olmasını vurğulayıb. İşsizliyi, qiymətlərin artmasını, pensiyaların cüziliyini, milli valyutanın qeyri-sabitliyini əsas iqtisadi problemlər kimi sadalayıb. "Gürcüstanda istehsal et" , "Startap Gürcüstan" kimi layihələri isə uğurlu addımlar kimi dəyərləndirib.

Məruzəsində xarici siyasət məsələlərinə toxunan prezident Gürcüstanın Avropaya inteqrasiyası, NATO strukturları ilə münasibətlərinin uğurlu olmasını qeyd edib. Lakin qazanılan uğurlarla kifayətlənməli olmamamızı da diqqətə çatdırıb.

Marqvelaşvili ölkənin təhlükəsizliyi və müdafiəsi sahəsində əldə olunmuş uğurlarla yanaşı, milli təhlükəsizlik konsepsiyasının yeniləşdirilməsi, yeni Milli Təhlükəsizlik strategiyasının yaradılmasının vacibliyindən bəhs edib. Nə özümün, nə də sizin başınızı ağrıtmayım, prezidentin məruzəsi ilə bu linkden http://www.civil.ge/rus/article.php?id=29049 tanış ola bilərsiniz.

**Gördünüzmü prezidentimiz necə qoçaq adamdır? Mən bu fikri yuxarıda bir balaca da olsa dilimdən qaçırmışdım. Amma nə olsun, sizin bəzilərinizin şəkkaklığı, hər şeyə şübhəylə yanaşmaq şakəri məni mövzunu bunca uzatmaq yolunu seçməyə vadar etdi. Olsun, bu yolu seçməyin özündə də bir xeyir var. Hamının işi avand olsun.**

## APRELİN 14-DƏ GÜRCÜSTANDA GÜRCÜ DİLİ GÜNÜ KEÇİRİLİB

Aprelin 14-də Gürcüstanda ənənəvi gürcü dili günü qeyd olunub. Gürcü dili dövlət dilidir, dünyada bu dil vasitəsilə 4 milyondan artıq adam ünsiyyət qurur.

Müsair gürcü dilinin 17 dialekti var.

Gürcü dili Cənubi Qafqazın əsas dillərindən biridir. Bu dil IV yüzillikdən, xristianlığın qəbulundan sonra fasiləsiz yazılı və ədəbi ənənələrə malikdir.

Gürcü dili 5 sait və 28 samit səsdən ibarətdir.

Təxminən V əsrdə aramey və yunan yazıları əsasında formalaşan müasir gürcü əlifbası 33 hərfdən ibarətdir.

İlkin orta əsrlərdən qədim gürcü yazısı mrqlovanidən (asomtavruli) istifadə olunub. IX yüzillikdən etibarən nusxuri (kilsə) yazısı, XI yüzillikdən isə mxedruli (mülki) yazı növü geniş yayılıb.

Yakov Surtavelinin 476-cı ilə aid edilən "Şuşanikin əzabları" əsəri gürcü dilində yazılmış ən qədim əsər sayılır.

## 2020-Cİ İLƏDƏK GÜRCÜSTANDA 2500 İNFRASTRUKTUR LAYİHƏSİ HƏYATA KEÇİRİLƏCƏK



Gürcüstan hökuməti 2020-ci ilədək 10 milyard dollara yaxın ümumi dəyəri olan 2500 mühüm infrastruktur layihəsi həyata keçirməyi nəzərdə tutur. Məlumatı hökumət administrasiyasının mətbuat xidməti yayıb.

İnfrastruktur və regional inkişaf naziri Zurab Alavidze aprelin 12-də hökumətin iclasında 2017-2020-ci illərdə ölkənin infrastrukturunun inkişaf planını təqdim edib.

Təqdimatda baş nazir Georgi Kvirikaşvili, hökumət üzvləri, diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Ölkənin infrastrukturunun inkişaf planına 1000 kilometrlik avtomobil yollarının tikintisi və yenidən qurulması, əlavə yarım milyon adamın fasiləsiz su ilə təmin edilməsi və sair daxildir.

2017-ci ildə bu planların həyata keçirilməsi üçün 260 milyon lari ayırılıb.

## VİZASIZ REJİMİN TƏTBİQ OLUNMASININ 11 GÜNLÜK NƏTİCƏLƏRİ

Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına görə vizanın ləğv edilməsindən sonra keçən 11 gün ərzində Avropa İttifaqına 7000 Gürcüstan vətəndaşı səfər edib. Burada martın 28-dən aprelin 7-dək olan müddətdə səfər edənlərin məlumatları təhlil edilib.

Onlardan üç nəfərinə getməyə icazə verilməyib. Bir nəfərin biometrik pasportu olmayıb, bir nəfər sərhədçilərə mehmanxananın bron edildiyini təsdiqləyən sənəd təqdim edə bilməyib, digəri isə səfərinin məqsədini təsdiq edəcək sənədə malik olmayıb.

Vizasız rejim şəraitində sərhədçinin gələn adamdan səfərinin məqsədi barədə soruşmaq və təsdiqləyici sənəd olmadıqda onun gedişinə qadağa qoymaq hüququ var, həmçinin sərhədçi viza olduqda belə gedişə icazə verməyə bilər.

## GÜRCÜ DİLİ GÜNÜ İLƏ ƏLAQƏDAR İNŞA MÜSABİQƏSİ KEÇİRİLİR

Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziriliyinin təşəbbüsü ilə etnik azlıqların nümayəndələri olan şagirdlər üçün Gürcü dili günü ilə əlaqədar inşa müsabiqəsinə start verilib.

İştirakçılar „Gürcü dili – mənim uğura gedən yolum" mövzusunda inşa yazmalıdırlar. Müsabiqənin məqsədi qeyri-gürcü dilli məktəblərdə təhsil alan şagirdlərin dövlət dilini bilməyin önəmli olmasını dərk etmələrinə yardım etməkdir. Müsabiqə aprelinn 13-dən mayın 20-dək davam edəcək. İnşa müsabiqəsi Gürcüstanın Birləşmiş Millətlər Təşkilatı assosiyasiyasının dəstəyi ilə keçirilir.

Müsabiqənin şərtləri:

- Müsabiqədə qeyri-gürcü dilli məktəblərin IX-XII sinif şagirdləri iştirak edə bilərlər;
- İştirakçı inşanı „Gürcü dili – mənim uğura geden yolum" mövzusunda yazıb, təqdim etməlidir;
- İnşanın həcmi minimum 150-i sözdən ibarət olmalıdır;
- İnşalar elektron, çap və əllə yazılmış formada qəbul olunacaq;
- İnşanın sonunda müəllifin adı, soyadı, neçənci sinifdə, hansı məktəbdə oxuması və əlaqə nömrəsi qeyd olunmalıdır.

Qaliblərin müəyyənləşdirilməsi və mükafatlandırılması qaydaları:

Xüsusi müsabiqə komissiyası 4 qalibi müəyyənləşdirəcək.

Qaliblərə mayın 26-da Gürcüstanın müstəqillik gününə həsr olunmuş tədbirdə dövlət naziri Ketevan Çixelaşvili diplom və hədiyyə olaraq pıanşetlər təqdim edəcək

Qiymətləndirmə meyarları:

- Məzmunun başlıqla tutuşması;
- Hekayədə, fikiri lakonik çatdıra bilmək bacarığı;
- Mətn qramatik məzmuna malik olmalıdır;

İnşanı may ayının 20-ə qədər press@smr.gov.ge ünvanına göndərmək olar.

- Əllə yazılmış inşanı bu ünavana təqdim edə bilərsiniz: Tbilisi, Q.Leonidze 3/5, Barış və Vətəndaş Bərabərliyi Məsələləri Üzrə Dövlət Nazirliyi; (Əlavə məlumat üçün: Manan Mçedlişvili - 577 999 773);
- Barış və Vətəndaş Bərabərliyi Məsələləri Üzrə Dövlət Nazirliyinin Kvemo-Kartli üzrə nümayənədəsi - Zaur Darğallı - 591 300 036.

## BMT-NİN TURİZM İDARƏSİ GÜRCÜSTANA MİLYON TURİST GƏTİRMƏYƏ HAZIRLAŞIR



BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) baş katibi Taleb Rifai Gürcüstanın Kazbeki rayonunun Stepansminda kəndinə səfəri zamanı gördüyü mənzərəyə valeh olduğunu bildirib.

Taleb Rifai turistlər arasında məşhur olan və Qafqaz dağlarının ətəyində yerləşən bu əraziyə Fransa Turizm Departamentinin rəhbəri Mişel Düryu, Gürcüstan Milli Turizm İdarəsinin başçısı Georgi Çoqovadze və Gürcüstanın İspaniyadakı səfiri Zurab Pololikaşvili ilə birlikdə baş çəkib.

Qonaqlar 2170 metr hündürlükdə yerləşən Qerqeti kilsəsində, habelə "Rums" otelində olublar.

Təbiətə valeh olan Taleb Rifi növbəti dəfə Gürcüstana milyon turist gətirəcəyini vəd edib.

O, deyib: "Bu gözəl təəssüratı bölüşmək üçün istəyərdim ki, bu dəqiqə bütün dünya mənimlə olsun. Gələcəkdə Gürcüstana gəlməyə və özümlə bir milyon adam da gətirməyə çalışacam".

O, Gürcüstana səfərdən böyük təəssürat əldə etdiyini bildirib. Onun sözlərinə görə, ölkənin çox gözəl təbiəti, füsünkar dağları, dadlı yeməkləri və gözəl xalqı var. BMT-nin turizm təşkilatının başçısı vurğulayıb ki, Gürcüstanın böyük turizm potensialı var.

Rifai Gürcüstana Avropa və Asiyanın dağ kurortları beynəlxalq konfransında iştirak etmək üçün gəlib. Gürcüstan hökuməti onu turizmin inkişafındakı xidmətlərinə görə "Şərəf Ordeni" ilə təltif edib.

## FREEDOM HOUSE GÜRCÜSTANIN DEMOKRATİKLİK BALINI OLDUĞU KİMİ SAXLAYIB

Freedom House təşkilatının illik araşdırmasına əsasən, 2016-cı ildə Gürcüstanın demokratiklik göstəriciləri əvvəlki ilin analoji göstəricilərinə yaxın olub.

"Keçid dövründə olan dövlət – 2017" illik araşdırmadır və 2016-cı il üzrə keçmiş kommunist blokunun 29 ölkəsindəki vəziyyəti təhlil edir.

Son araşdırmaya görə, Gürcüstanın ümumi demokratiklik balı 4,61 olub. Bu göstərici 2015-ci ildə 4,64, 2014-cü ildə isə 4,68 bal təşkil etmişdi. Freedom House-un 2012-ci və 2013-cü illərdə apardığı araşdırmalarda Gürcüstanın aldığı bal müvafiq olaraq 4,75 və 4,82 olmuşdu.

Ümumi demokratiklik balı seçki prosesi, vətəndaş cəmiyyəti, müstəqil KİV, mərkəzi və yerli idarəetmə, məhkəmə sistemi və korrupsiya kimi kateqoriyaların orta göstəricisi nəzərə alınmaqla hesablanır.

Ballar 1-dən 7-dək hesablanır və burada 1 bal demokratik inkişafın yüksək, 7 bal isə ən aşağı göstəricisi hesab olunur.

Gürcüstan araşdırmaya görə, "keçid-hibrid sistemli" ölkələr sırasındadır.

## PASPORTLARIN RƏNGİ NƏ ÜÇÜN MÜXTƏLİFDİR?



Dünya ölkələrində dörd rəngdə pasportdan istifadə olunur. Sənədin üzünün rəngini seçməkdə hər ölkənin öz səbəbi və məqsədi var. Gəlin, görək bu nə ilə bağlıdır? Ən çox yayılmış rəng hansıdır?

Qırmızı üzlü pasportlar keçmiş və ya indiki kommunist ölkələrində yayılıb. Sloveniya, Çin, Serbiya, Rusiya, Latviya, Rumıniya, Polşa, Gürcüstan kimi ölkələrin vətəndaşları tünd qırmızı və qırmızı rəngin müxtəlif çalarları olan pasportdan istifadə edirlər. Avropa İttifaqına daxil olmaqla maraqlananlar, məsələn, Türkiyə, Makedoniya və Albaniya pasportları üçün qırmızı rəngi bir neçə il əvvəl seçiblər. Millətlərin And Birliyinə daxil olan Boliviya, Kolumbiya, Ekvador və Peru vətəndaşlarının da pasportları tünd qırmızı rənglidir.

Ən geniş yayılmış rənglərin ikincisi mavidir. Mavi cild "yeni dünya"nın rəmzidir. 15 Karib ölkəsinin pasportu mavi üzlüdür. Cənubi Amerika ölkələri blokunun mavi pasportları onların Merkosur ticarət ittifaqına bağlılıqlarını göstərir. Bu bloka daxil olan ölkələr Braziliya, Argentina və Paraqvaydır. Bu birliyə daxil olan Venesuela vətəndaşları isə qırmızı pasporta sahibdirlər. ABŞ vətəndaşları 1976-cı ildən mavi pasporta malikdirlər.

Əksər müsəlman ölkələrində pasportlar yaşıl rənglidir. Yaşıl rəng Məhəmməd peyğəmbərin sevimli rəngi sayılır, təbiətin və həyatın bəlgəsidir. Qərbi Afrika ölkələri vətəndaşları da yaşılın müxtəlif çalarlarına malik pasportla hərəkət edirlər. Bu ölkələrdə yaşıl rəng onların Qərbi Afrika İqtisadi Birliyinə mənsub olmalarınının göstəricisidir.

Ən nadir pasportlar qara cildli pasportlardır. Bir çox Afrika ölkəsində vətəndaşlara qara rəngli pasport verilir. Yeni Zelandiya vətəndaşları da qara rəngli pasport sahibidirlər. Çünki qara rəng bu ölkənin milli rəngidir.

## AVRONUN ÜZƏRİNDƏKİ RƏMZLƏR NƏYİ İFADƏ EDİR?

*Avropa İttifaqına, bütövlükdə Avropanın 30 ölkəsinə vizasız gedişlərin intensivləşdiyi bir dönəmdə Avrozona adlandırılan məkanda ən işlək valyuta olan avro barədə müəyyən təsəvvürümüzün olması vacibdir. O səbəbdən də, Avropanın əsas valyutası barədə belə bir material hazırlamaq qərarına gəldik. Buyurun, tanış olun.*

Avro – Avropa İttifaqına (Aİ) üzv dövlətlərin rəsmi valyutasıdır. Avronun tədavüldə olduğu ölkələr Avrozonanı təşkil edirlər.

2002-ci ildən dövriyyədə olan nəğd avro sikkə və əskinas şəklində buraxılır. Onlar Avropa valyuta institutunun 1996-cı ildə keçirdiyi müsabiqə əsasında seçilib.

Ən yaxşı avro əskinası müsabiqəsinə 44 layihə təqdim edilmişdi. Marketinq, dizayn, reklam, incəsənət tarixi üzrə ekspertlərdən təşkil olunmuş müstəqil münsiflər onların arasından ən layiqlilərini seçmişdilər. Sonra ictimai rəy sorğusu keçirilmişdi. 1996-cı ildə müstəqil ekspertlərin və ictimai rəyin tövsiyəsi ilə Avstriya Mərkəzi Banknın dizayneri, rəssam Robert Kalinanın hazırladığı dizayn-layihə seçilmişdi.

Banknotun dizaynında Avropa mədəniyyət tarixinin yeddi arxitektura stili – klassik, roman, qotik, renessans, barokko, rokoko, "metal və şüşə", XX əsrin arxitekturası əks olunub. Bütün əskinasların üzərində müxtəlif dövrlərə aid tipik arxitektura formaları – körpülər, pəncərələr, tağlar təsvir edilib. Əskinasların üz tərəfində təcvir olunan pəncərə və qapılar Avropanın açıqlıq və əməkdaşlıq ruhunun rəmzidir. Avropa İttifaqının 12 ulduzu müasir Avropanın dinamikliyini və harmoniyasını əks etdirir. Banknotların hər birinin arxasında əks olunan körpü metaforası Aİ-da və ondan kənarda adamların ünsiyyətini ifadə edir.

5, 10, 20, 50, 100, 200 və 500 avro dəyərində əskinaslar buraxılır. Hər bir əskinasın özünün ölçüsü və rəngi var. Avronun bütün əskinasları ümumi dizayna və saxtakarlıqdan xüsusi qorunmaya malikdirlər. Əskinaslar su işarəsi, qoloqrama və təhlükəsizlik sapı vasitəsilə saxtalaşdırılmadan mühafizə olunur.

1 avro yüz sentə (avrosentə) bərabərdir. 1, 2, 5, 10, 20 və 50 sentlik, habelə 1 və 2 avroluq sikkələr buraxılır. Dəyərindən asılı olaraq onlar ölçüsünə, çəkisinə, rənginə və qalınlığına görə fərqlənirlər. Ən yüksək dəyərə malik 1 və 2 avroluq sikkələr ikirənglidirlər (gümüşü və sarı). 10, 20 və 50 orta dəyərli avrosentlər sarı, 1, 2 və 5 az dəyərli avrosentlər isə mis rəngindədir.

Avrozonanın bütün ölkələri üçün eyni olan əskinaslardan fərqli olaraq, sikkələrin ümumi bir tərəfi var. Həmin tərəfdə sikkənin dəyəri, digər tərəfində isə "milliliyi" göstərilir. Onda sikkənin kəsildiyi ölkənin təsviri yerləşdirilir.



Avro sikkəsinin ümumi dizaynının hazırlanması üzrə müsabiqədə Belçikanın Kral sikkə sarayının əməkdaşı Lyuk Lyuiks qalib gəlib. Onun layihəsi Avropa İttifaqının 20 ulduzu fonunda Avropanın üç müxtəlif xəritəsindən ibarətdir.

1, 2 və 5 sentlik sikkələrin tərəflərinin ümumi dizaynı Avropanın dünyadakı yerini göstərir. 10, 20 və 50 sentlik sikkələr Avrozona ölkələrinin (Avropa İttifaqına üzv olmayan dövlətlər də təsvir edilib) bir yerə necə cəmlənməsi göstərilir.

1 və 2 avro dəyərində olan sikkələrdə sərhədsiz Avropa təsvir olunur. Bütün sikkələrdə on iki ulduz təsvirinə yer ayrılıb.

2005-ci ildə Aİ-nin genişlənməsini nəzərə almaqla bütün sikkələrin ümumi tərəflərinin yenilənməsi ilə bağlı qərar qəbul edilib. 2007-ci ildən yenilənmiş sikkələri Avrozonanın yeni üzvləri buraxmağa başlayıb.

Afayət AFİQ

## ƏDLİYYƏ NAZİRLİYİ ŞƏXSİYYƏT VƏSİQƏLƏRİNİN PULSUZ VERİLMƏSİ AKSİYASINA BAŞLAYIB

Seçici siyahılarının dəqiqləşdirilməsi üçün Gürcüstan Ədliyyə Nazirliyi növbəti aksiyaya start verərək, şəxsiyyət vəsiqələrinin pulsuz verilməsinə başlayıb. Aksiya aprelin 10-dan 29-dək keçirilir.

Yeni şəxsiyyət vəsiqələrini 18 yaşı tamam olmuş və elektron şəxsiyyət vəsiqəsi olmayan və ya bu sənədə ilk dəfə sahib olmaq istəyənlərin hamısı ala bilər.

Aksiya çərçivəsində sənəd üçün vətəndaşların fotoşəklləri pulsuz çəkiləcək.

İD kartları almaq üçün ədliyyə evlərinə, dövlət xidmətlərinin inkişafı üzrə agentliyin ərazi xidmətlərinə və ya ictimai mərkəzlərə müraciət etmək lazımdır.

Aksiyanın keçirilməsi seçici siyahılarını dəqiqləşdirmək məqsədi daşıyır. Məlumatda bildirilir ki, vətəndaşlar nə qədər çox biometrik sənədə sahib olarlarsa, "bir seçici – bir səs" prinsipi daha çox qorunar.

Məhz bu məqsədlə nazirlik son dörd ildə 24 aksiya keçirib. 1 200 000-dən çox vətəndaş pulsuz və ya yarı qiymətinə şəxsiyyət vəsiqəsi alıb.

Hal-hazırda Gürcüstanda 2 485 876 nəfərdən çox vətəndaşın elektron şəxsiyyət vəsiqəsi var, 376 142 nəfər isə biometrik pasporta sahibdir. Bu isə o deməkdir ki, Vətəndaş reyestrində 2 862 018 dəqiq məlumat toplanıb.



## SURİYA SİYASƏTİNDƏ ABŞ-IN ATDIĞI QƏFİL ADDIMLAR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Aprelin ilk günlərində ABŞ və Çin liderlərinin yüksək səviyyəli görüşü və ardınca birincinin Suriyaya endirdiyi hava zərbələri dünya mətbuatının ən çox qələmə aldığı mövzudur.**

ABŞ perzidenti Tramp prezidentliyi dönəmində əsas strategiyasını hər nə qədər iqtisadi məsələlər üzərində quracağını bildirsə də, xarici siyasətdə Ağ Evin klassik hegemonluq ambisiyalarını yaddan çıxarmaq lazım deyil. Beynəlxalq arenda, xüsusi ilə də Suriya məsələsində "passivlik" təsiri bağışlayan ABŞ bu ölkəyə hava zərbələri endirməklə regionda "mən də varam" mesajı verdi. Əsəd rejiminə tabe Suriya ordusunun müxalif qüvvələrə qarşı kimyavi silahlardan istifadə etməsi Vaşinqtonun bölgəyə yenidən qayıtmasına zəmin yaratmış oldu. Pentaqon Suriyanın Homs vilayətində yerləşən hərbi hava qüvvələri bazalarına raket zərbələri endirərək bir andaca regionun geostrateji xəritəsində də önəmli dəyişiklik etmiş oldu. B. Əsədi hava hücumundan müdafiə etməyə boyun olmuş Kremlin Suriyada yerləşdirdiyi "S-400" zenit komplekslərinin dövrəyə girməməsini Moskvanın siyasi cürətinin zəifliyi kimi dəyərləndirmək olar. ABŞ-ın Suriyada həyata keçrdiyi son əməliyyatını Moskva yalnız diplomatik dildə qınamaqla kifayətləndi. Rusiya prezidentinin mətbuat katibi Peskovun "Əsədi əbədi olaraq dəstəkləməkyə borclu deylik" bəyanatı Vaşınqtonla hərbi rəqabətdə Moskvanın "sinifdə qalmasına" işarədir. Zərbələr endirməklə ABŞ Dəməşqin müdafiə sisteminin nə dərəcədə zəif olduğunu göstərmək və Moskvanın da nəbzini yoxlamaqla öz Avropalı müttəfiqlərinə Rusiyanın qorxulu "əcinnə" olmadığını nümayiş etdirdi. Digər tərəfdən, Tramp daxili publika üçün "Moskvanın adamı" olmadığını, Rusiya ilə Suriya məsələsində heç bir ortaqlığından söhbət belə gedə bilməcəyini sübut etdi. O, həm də sözdə İŞİD terroru ilə mübarizə adı altında müxalifətin məhvinə yönəlmiş Dəməşq-Moskva tandeminə onların əsl hədəfdən yayındıqlarını xatırlatmış oldu. Yaxın gələcəkdə Rusiya və ABŞ arasında daha sərt diplomatik soyuqluğun yaşanacağı qaçılmazdır.

Vaşınqtonun həyata keçirdiyi son əməliyyat regionda yenidən Türkiyənin önəmini artıracaqdır. Suriya labirintində son hədəfə nail olunmasında Ankaranın kilid rolu oynayacağı fakdır. Lakin, Suriyaya raket zərbələri endirməklə Vaşinqton Türkiyənin Rusiya ilə yaxınlaşmasını və Suriya strategiyasını düzgün tərtib etmədiyi ismarıcını da Ankaraya çatdırmış oldu. İndiki zamanda Ankaranın ən böyük narahatçılığı Pentaqonun PKK və PYD-ni İŞİD-lə mübarizə bəhanəsi ilə silahlandırması və gələcəkdə Kürdistan muxtariyyənin siyasi subyektə çevrilməsidir. Ağ Evin bölgədəki kürd qruplaşmaları ilə əməkdaşlığı belə bir versiyanı irəli sürməyə əsas verir. Kürdüstanın yaradılması Yaxın Şərqdə Vaşınqtonun yeni bir forpost formalaşdırması deməkdir. Zaman-zaman Ankara ilə soyuq münasibətlər yaşadığı üçün ABŞ regionda alternativ tərəf-müqabil yaratmaq haqqında düşünür. Odur ki, Vaşınqtonun Kürdistan ideyası həm Türkiyə, həm də İran üzərində əlavə təzyiqlər yaratmağa hesablanıb. Ən azından fitili çəkilmiş ideya ehtiyatda durmaqdadır. Lakin, ABŞ-ın bu yöndəki planı regionun Türkiyə, İran, İraq və Suriya kimi dövlətləri ilə birbaşa konflikt yaşaması deməkdir. Zərbələrdən dərhal sonra Türkiyənin baş tutan əməliyyatı dəstəklədiyini bildirməsi Ankaranın Vaşinqtonun yanında qərar tutacağı və prespektivdə rus-türk işbirliyinin irəliyə gedə bilməməsindən xəbər verir. Çünki, Moskva və Ankara arasında istər iqtisadi, istərsə də siyasi məslələrdə hələ də yetərincə mövqe fərqlilyi möcuddur.

Beynəlxalq münasibətlərin dramatik böhran müstəvisində inkişaf etməsini ehtimal edən müttəxəssislər ABŞ-Rusiya əlaqələrinin ən arzuolunmaz ssenarisi üzərində baş sındırmaqdadırlar. Rusiyanın birbaşa müharibəyə cəlb olunması III dünya müharibəsi deməkdir. Rusiyanınsa istər hərbi, istərsə də iqdisadi potensialı nə dərəcədə buna tab gətirəcək? Ekspertlər hesab edirlər ki, əgər hadisələr bu ssenaridə davam etsə, ilk olaraq bu ölkə oliqarxlarının beynəlxalq banklarda olan bütün hesabları dondurulacaq, Rusiya SWIFT bank sistemindən kənarlaşdırılacaq, rus qazı və neftinin ticarətinə qadağa qoyulacaq, rubl ildırım sürəti ilə infilyasiyaya məruz qalacaq, bir sözlə Rusiya qapalı qutu kimi konservləşdiriləcək. 72 saat ərzində ABŞ, Türkiyə, Böyük Britaniya, İsrail, Almaniya və digər NATO üzvləri Əsədə qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlayayarlarsa, Rusya danışıqlar masasının "məğlubedilmişlər" üçün ayrılmış hissəsində əyləşmiş olacaq. Çətin ki, Kreml belə bir riskə gedə.

**Dünya yaman çalxalanır...**

## ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI İDLİBDƏ ZƏHƏRLİ QAZDAN İSTİFADƏ OLUNDUĞUNU TƏSDİQLƏYİB

Ümumdünya Səhiyyə Təşkilatı Suriyanın İdlib əyalətində əsəb sistemini iflic edən qaz tətbiq edilməsini təsdiqləyib.

Aprelin 4-də İdlib əyalətinin Xan Şeyhun yaşayış məntəqəsində Əsəd rejiminin istifadə etdiyi kimyəvi silah nəticəsində 500-dən artıq dinc sakin həlak olub, 500 nəfər, əsasən də uşaqlar ziyan görüb.

Xatırladaq ki, Suriyada müharibə 2011-ci ilin martında başlayıb. Belə ki, hərbiçilərin dinc nümayişçilərə atəş açmasından sonra silahlı qarşıdurma yaranıb.

BMT-nin məlumatlarına görə, münaqişənin gedişində 400 mindən çox adam həlak olub, 10 milyon nəfərdən çox adam öz evini tərk etməyə məcbur olub, 4,8 milyon suriyalı isə ölkə xaricində sığınacaq tapıb.

## RUSİYA KOSMİK POTENSİALINI GÜCLƏNDİRMƏK NİYYƏTİNDƏDİR

Ölkənin kosmos sahəsindəki potensialını artırmağa davam edəcəyik və növbəti 10 il ərzində cığır açacaq yeni layihələri reallaşdıracağıq.

Bu açıqlama ilə Rusiya prezidenti Vladimir Putin aprelin 12-də Kosmonavtika günü münasibətilə təşkil edilən mərasimdəki çıxışında deyib.

"Bütün çağırışlara cavab vermək üçün öz potensialımızı artırmalıyıq. Rusiya "Vostoçnı" kosmos bazasını inşa edərək kosmosa müstəqil olaraq addımını atacaq. Stansiyanın yaxınlığında "Siolkovski" şəhəri və kosmos araşdırmaları üçün bənzərsiz şərtlər təqdim edəcək texnologiya parkı yaradılır" – Rusiya prezidenti vurğulayıb .



## NYU YORKUN 80 SAKİNİ ŞƏHİRİN BÜDCƏSİNƏ 2 MİLYARD DOLLAR VERGİ ÖDƏYƏCƏK

Nyu Yorkun 80 varlı sakini ştatın qubernatoruna müraciət edərək, büdcəyə əlavə vəsait köçürmək niyyətində olduqlarını qeyd ediblər.

Bununla ştatın zəngin sakinləri məktəblərin, yolların, körpülərin tikintisi, eləcə də kasıb əhaliyə yardım məqsədilə qəbul edilmiş proqramların maliyyələşdirilməsi üçün əlavə vergi ödəyəcəklər.

Gözlənilir ki, varlılardan tutulacaq bu xüsusi vergilər sayəsində büdcəyə 2 milyard dollar əlavə vəsait daxil olacaq.

## AVROPA ÖLKƏLƏRİNDƏ KÜLƏK VƏ GÜNƏŞ ENERJİSİ İSTEHSALI DURMADAN ARTIR



Avropa İttifaqı ölkələri 2020-ci ilə qədər elektrik enerjisinin 20%-ini təbii qaynaqlardan almağı planlaşdırırlar.

Hazırda Aİ-da "təmiz" enerjinin payı 16% təşkil edir.

Avropada "təmiz" enerji qaynaqlarından istifadəyə görə liderlik edən ölkələr aşağıdakılardır:

İsveç – 53,9%, 2040-cı ilədək bunu 100%-dək yüksəltməyi nəzərdə tutur.

Finlandiya – 39,3%. Bu ölkədə 2014-cü illə müqayisədə 2015-ci ildə külək enerjisindən istifadə olunması iki dəfə artıb.

Latviya – 37,6%. Latviyada 2020-ci ilədək bu göstəricini 40%-ə qədər artırmağı nəzərdə tuturlar.

Avstriya – 33%. Külək və günəş enerjisindən istifadə 2014-cü ildən 2015-ci ilədək 25% artıb.

Danimarka – 30,8% göstərici ilə 2020-ci ilə nəzərdə tutulmuş məqsədə çatmağa artıq nail olub.

Lüksemburq, Malta, Hollandiya, Belçika və Böyük Britaniyada "təmiz" enerjiyə keçid çox yavaş gedir.

Hollandiya və Fransa Aİ-nın qoyduğu hədəfə çatmaqda daha çox çətinlik çəkir.

## DÜNYADA 30 MİLYON ADAM NARKOTİKDƏN İSTİFADƏ EDİR

Dünyada 30 milyon adam narkotikdən istifadə edir, ildə 200 min nəfərə bu asılılıq səbəbindən dünyasını dəyişir. Məlumatı BMT baş katibinin müavini, təşkilatın narkotiklər və cinayətlər idarəsinin icraçı direktoru Yuri Fedotov səsləndirib.

Onun sözlərinə görə, narkotik ticarəti cinayətkar qruplaşmalara dünyada qlobal ümumi daxili məhsulun 3,6 faizi qədər gəlir gətirir. Fedotovun sözlərinə görə, təkcə Avropa İttifaqında narkobaronların gəliri hər il 24-28 milyard dollardır.

## ABŞ ÇİN DƏNİZİNƏ RAKET ESMİNESİ GÖNDƏRDİ

ABŞ Cənubi Çin dənizinə "Stetxem" raket esminesini göndərib.

Məlumatı ABŞ Hərbi-Dəniz Qüvvələrinin mətbuat xidməti yayıb.

ABŞ belə bir addım atmasına səbəb kimi Şimali Koreyanın nüvə sınaqlarını göstərib.

Donanmanın nümayəndəsi Robert Paz bildirib ki, donanma heyəti bu missiyanı həyata keçirilməklə əsas bölgələrdə mühüm təcrübə əldə edəcək.

ABŞ-ın bir müddət əvvəl "Karl Vinson" təyyarədaşıyan gəmisini Cənubi Koreyaya göndərməsindən sonra Şimali Koreya ilə yaşanan gərginlik daha da artıb. ABŞ Şimali Koreyaya zərbə endirməyə hazır olduğunu da açıqlayıb.

## DARYAL SU ELEKTRİK STANSİYASININ AÇILIŞI OLUB

Aprelin 8-də Daryal dərəsində yeni SES-nın açılış mərasimi olub.

Daryal Su Elektruik Stansiyası müstəqil Gürcüstanda inşa olunmuş ən böyük stansiyadır. Bu barədə Daryal SES-in açılış mərasimində Gürcüstanın baş naziri Georgi Kvirikaşvili bəyan edib.

Georgi Kvirikaşvilin sözlərinə görə, Daryal SES öz konstruksiyasına görə digər stansiyalardan fərqlənir və daha güclüdür. Bu SES-in timsalında Gürcüstanda digər stansiyaların tikintisi də nəzərdə tutulur.

Baş nazirin fikrincə, Daryal SES mühəndislik nöqteyi-nəzərindən ən mürəkkəb quruluşa malik bir qurğudur.

Baş nazir SES-in tikintisi çərçivəsində bir 5,5 kilometrlik,bir 500 metrlik, iki 300 metrlik və bir 150 metrlik tunelin tikildiyini vurğulayıb. O, inşaatçılara, amerikalı tərəfdaşlara və Avropa bankına uğurlu işə görə təşəkkürünü bildirib.

## KALADZE: AZƏRBAYCAN GÜRCÜSTANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN MÖHKƏMLƏNDİRƏLMƏSİNDƏ MÜHÜM ROL OYNAYIR



Azərbaycan Gürcüstanın qaza olan ümumi tələbatını tam ödəyir və Tbilisi Azərbaycanın SOCAR şirkətinin ölkənin enerji sektorondakı iştirakını alqışlayır. Bu fikri Trend agentliyinə verdiyi müsahibədə Gürcüstan baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze səsləndirib.

Kaladzenin sözlərinə görə, SOCAR gürcü hökuməti ilə imzalanmış memorandum və Gürcüstanın neft və qaz korporasiyası ilə əldə olunmuş razılıq əsasında Gürcüstanın məişət və energetika obyektlərini fasiləsiz və etibarlı şəkildə qazla təchiz edir.

Nazir Gürcüstanın enerji təhlükəsizliyinin yüksəldilməsinə yüksək səviyyədə kömək edildiyini vurğulayıb.

Kaladze deyib: “Azərbaycan iki qaz kəməri vasitəsilə Gürcüstanın qaza olan ümumi tələbatını demək olar ki, tam şəkildə ödəyir. Azərbaycandan bu qaz kəmərləri vasitəsilə Gürcüstana verilən qazın orta sutkalıq həcmi 10,5-11,5 milyon kubmetr təşkil edir. “Şah Dəniz -2” layihəsi çərçivəsində bunun daha da artacağı gözlənilir”.

Nazir SOCAR Georgia Gas Ltd şirkətinin Gürcüstanın bütün ərazisinin qazlaşdırılması üzrə böyük layihələr yerinə yetirdiyini vurğulayıb. 2009-2016-cı illərdə 600-ə yaxın yaşayış məntəqəsində 200 min istehlakçı qazla təchiz edilib.

Kaladze 2017-ci ilin sonlarında əhalinin 75%-inin təbii qaz ala biləcəyini qeyd edib.

“Gürcüstan neft və qaz korporasiyası”nın özəlləşdirilməsi məsələsinə toxunan nazir, bu məsələnin əvvəllər nəzərdən keçirildiyini, lakin konkret qərar qəbul edilmədiyini bildirib. Kaladze əlavə edib ki, bu prosesdə SOCAR-ın hər hansı iştirakı məsələsi müzakirə edilməyib.

“Azərbaycan-Gürcüstan-Türkiyə” enerji körpüsü barədə danışan nazir bu körpünün işlərinin uğurla getdiyini vurğulayıb. Onun sözlərinə görə, 2016-cı ildə ilk dəfə Azərbaycandan Türkiyəyə Gürcüstan vasitəsilə bir milyard kilovatt elektrik enerjisi nəql olunub.

Gürcüstan 2017-ci ildə 2, 457 milyard kubmetr qaz almağı planlaşdırır ki, bunun da 2, 347 milyard kubmetri, yəni 95,5%-i Azərbaycandan alınacaq.

## GÜRCÜSTANA TƏBİİ QAZIN 93,4%-İ AZƏRBAYCANDAN DAXİL OLUR

2016-cı ildə Azərbaycan Gürcüstanın qaza olan tələbatının 93,4%-ini təmin edib. Enerjinin tənzimlənməsi üzrə komissiyanın məlumatına görə, 2016-cı ildə Rusiya qazının payı cəmi 5,4% təşkil edib. Tənzimləmə komissiyasının illik hesabatına əsasən, Ermənistandan da təbii qaz idxalı həyata keçirilib. Ermənistandan 0,9% qaz alınıb. Yerli qaz hasilatı isə 0,3% olub.

Müfəssəl statistikaya əsasən, Azərbaycandan 1,321 milyard kubmetr (ümumi qazın 58,4%-i), Cənubi Qafqaz qaz xətti ilə 792 milyon kubmetr (35%) qaz idxal olunub. Rusiyadan 66 milyon kubmetr, yəni 2,9%, Ermənistana verilən qazın müqabilində isə 56 milyon kubmetr, yəni 2,5% qaz alınıb. Ermənistandan idxal olunan qazın həcmi 19 milyon kubmetr, yerli istehsal isə 6 milyon kubmetr təşkil edib.

Ümumilikdə alınan qazın həcmi 2, 261 milyard kubmetr olub.

2016-cı ildə Gürcüstanın təbii qaza tələbatı əvvəlki ilə nisbətən 6,4% azalıb, bu da əsasən istilik elektrik stansiyalarının qaza olan tələbatının 23% azalması ilə bağlıdır.

## GÜRCÜSTAN RUSİYA QAZINDAN İMTİNA EDİR

Gürcüstan ilin sonunadək “Qazprom”dan yanacaq almayacaq. Bu barədə energetika naziri Kaxa Kaladze məlumat verib.

Kaladze deib: “Bizə Azərbaycan və ya İran qazı almaq imkanı verilir. Biz Azərbaycan təbii qazı üzərində dayanmaq qərarı qəbul edirik”.

Energetika naziri dəqiqləşdirib ki, Rusiya qazını almaqdan imtina etməyə “Qazprom”la müqavilə imkan verir. Gürcüstan Rusiya qazını 2007-ci ildən alır, 2016-cı ilədək Gürcüstan tranzit vergisi kimi Ermənistana verilən Rusiya qazının onda birini alırdı.

Gürcüstan hökuməti cari ilin yanvarında “Qazprom”la Rusiya qazının Ermənistana nəqli ilə əlaqədar yeni şərtlərlə, qazın dəyərinin pulla ödənilməsini nəzərdə tutan müqavilə imzalayıb.

Kaladzenin sözlərinə görə, “Qazprom”la müqavilə başa çatdıqdan sonra, Gürcüstan Rusiya yanacağının tədarükündən az asılı olacaq, çünki o vaxta qədər yeni qaz anbarları inşa olunacaq.

## MÜBARƏK AYLAR VƏ GÜNLƏR



Hacı BƏKİROĞLU

*kafkasli@mail.ru*

**Dinimiz, mübarək aylara, günlərə, gecələrə əhəmiyyət vermişdir. Allahu təala, qullarına qarşı çox mərhəmətli olduğu üçün bəzi gecələrə qiymət vermiş, bu gecələrdəki dua və tövbələri qəbul edəcəyini bildirmişdir. Qullarının çox ibadət etməsi, dua və tövbə etmələri üçün bu gecələri səbəb etmişdir. Qiymətli gecəyə, özündən sonra gələn günün adı verilir. Əvvəlki günü günorta namazı vaxtından o gecənin fəcrinə, yəni imsak vaxtına qədər olan zamandır. Təkcə Ərəfə və qurban bayramının üç gününün gecələri belə deyil. Bu dörd gecə bu günləri izləyən gecələrdir. Bu gecələr canlandırılmalı, yəni qəza namazları qılınmalı, Qurani-Kərim oxunmalı, dua, tövbə edilməli, sədəqə verilməli, müsəlmanlar sevindirilməlidir. Bu gecələrə hörmət göstərilməlidir. Hörmət göstərmək, günah işləməməklə olar. Gecənin on iki qisimindən bir qisimini, məsələn, bir saata qədərini canlandırmaqla, bütün gecəni canlandırmaq olar. Yaz və qış fərqi yoxdur. Fiqh kitablarında saat demək, bir miqdar zaman deməkdir.**

İnsan varlıqlar içində ən görkəmli və ən mükəmməl bir şəkildə yaradılıb, yüksəlmələrə və alçalmalara uyğun duyğu və qabiliyyətlərlə təchiz edilmişdir. İnsan, uca yaradıcı tərəfindən bu dünyaya “Əşrəfi məxluqat” olaraq göndərilmişdir. Bununla birlikdə uca Allah insanı imtahana da tabe tutmuşdur.

Məhz üç ay və bu aylardakı mübarək gecələr, nəfs və şeytan tələsinə düşmüş və hər iki dünyasını zindana çevirəcək günah, üsyan və qəflət bataqlığında boğulmaqla qarşı-qarşıya gəlmiş insanın qurtuluşu üçün uzadılan can qurtarıcılarıdır. Mübarək aylar və gecələr günahkar və yaradılış məqsədini unudan insanlara kərəm və lütf sahibi uca Allah tərəfindən tanınan və əgər qiymətləndirilsə çox böyük qazanclara vəsilə olan bir fürsətdir.

Bu aylarda və gecələrdə içimizi və xaricimizi bilən Rəbbimizə qarşı, nəfsimizi mühasibəyə çəkməli, Onun bizim dünya və axirət həyatımızı Cənnətə çevirmək üçün göndərdiyi İslama tam təslim olub, olmadığımızı nəzərdən keçirməli, heç vaxt itirmədən İslamın rəhmət, bərəkət, bağışlama, fəzilət və həyat bəxş edən bulağından doya-doya nəsibimizi almaq üçün bu ayları, günləri başlanğıc bilməliyik. Bu mübarək aylar dediyimiz hicri – qəməri təqvimində olan Rəcəb, Şaban və Ramazan aylarıdır.

RƏCƏB ayı: Dörd qiymətli aydan biridir. Tövbə surəsinin 36-cı ayəsində: “Allahın göyləri və yeri yaratdığı gündən bəri, ayların sayı on ikidir. Bunlardan dördü, haram (hörmətli) olan aylardır” – buyurulur.

Rəsulullah əfəndimiz, Rəcəb ayına çox dəyər verər və “Ya Rəbbi, Rəcəb və Şabanı bizlər üçün mübarək et və bizi Ramazana çatdır” deyə dua edərdi.

ŞABAN ayı: Aişə anamız buyurur ki:

“Rəsulullahın, heç bir ayda, Şaban ayından daha çox oruc tutduğunu görmədim. Bəzən Şabanın hamısını orucla keçirərdi.” (Buxari)

Şaban ayının on beşinci gecəsinə Berat gecəsi deyilir. Bu gecənin əhəmiyyətini peyğəmbər əfəndimiz belə açıqlayır: “Şabanın 15-ci gecəsini ibadətlə, gündüzünü də orucla keçirin! O gecə Allahu təala buyurar ki: “Əfv istəyən yoxdurmu, bağışlayım. Ruzi istəyən yoxdurmu, ruzi verim. Dərdli olan yoxdurmu, səhhət verim. Nə istəyən varsa, istəsin verim” Bu hal, səhərə qədər davam edər.” (İbni Macə)

RAMAZAN AYI: Peyğəmbər əfəndimiz, Ramazani-şərifin fəziləti haqqında buyurur ki:

“Ramazan ayı mübarək bir aydır. Allahu təala, sizə Ramazan orucunu fərz etdi. O ayda rəhmət qapıları açılar, Cəhənnəm qapıları bağlanar, şeytanlar bağlanar. O ayda bir gecə vardır ki, min aydan daha qiymətlidir. O gecənin (Qədr gecəsinin) xeyirindən məhrum qalan, hər xeyirdən məhrum qalmış sayılar.” (Nəsai)

Bu ayda, əmri altında olanların işlərini yüngülləşdirən, onların ibadət etmələrinə asanlıq göstərən məmurlar da bağışlanar, Cəhənnəmdən azad olar. Ramazani şərif ayında Rəsulullah əsirləri azad edər, hər istənilən şeyi verərdi. Bu ayda ibadət və yaxşı iş edə bilənlərə, bütün il bu işləri etmək nəsib olar. Bu aya hörmətsizlik edənin, günah işləyənin bütün ili, günah işləməklə keçər.

Bu ayı fürsət bilməli, əldən gəldiyi qədər ibadət edilməlidir. Allahu təalanın razı olduğu işlər görülməlidir. Bu ay, axirəti qazanmaq üçün fürsət bilinməlidir.

**Qurani-Kərim də Ramazan ayında yer alan Qədr gecəsində nazil oldu.**




## CƏMİYYİTİMİZİN QADIN SÜRÜCÜLƏRƏ MÜNASİBƏTİ

Aytac ELXAN

**Həyat inkişaf etdikcə, həyatın tempi sürətləndikcə zaman məfhumu insanlar tərəfindən daha çox dəyərləndirilir, insan həyatında artıq hər bir dəqiqənin, hər bir saatın dəyəri mühüm əhəmiyyət kəsb etməyə başlayır. Buna müvafiq olaraq da, insanlar artıq zamanın dəyərini yüksək tutduqları üçün öz həyatlarını daha da asanlaşdırmağa can atır, bunun üçün müxtəlif vasitələr aramağa çalışırlar. Buna bir çox sahədə şahid oluruq. Misal ücün, gündəlik məişətimizdə müxtəlif texniki vasitələrdən istifadə buna əyani misal ola bilər. Bunlardan biri də qadınların avtomobil idarəetmə ehtiyacıdır. Mən bu məqaləmdə məhz qadınların avtomobil idarə etmə məsələsinə toxunmaq istəyirəm. Çünki, düşünürəm ki, bu da zamanı dəyərləndirmək nöqtəyi-nəzərindən olduqca vacib məsələdir.**

Ancaq cox təəssüf ki, cəmiyyətimizdə bu birmənalı qarşılanmır, bir cox hallarda tənqidlərlə üzləşirik. Qadınların avtomobil idarə etməsini bizim guclu cinsin bəzi nümayəndələri aqressiv qarşılayırlar. Çünki bizdə ''milli mentalitet''anlayışı daim qadınların azadlığına zidd baxışların inkişaf etməsinə şərait yaradıb. Hətta indi də qadınların iş həyatına qoşulmasına əngəl çıxan kişilər var, o ki, qaldı avtomobil idarə etməsi ola. Avropa ölkələrində artıq qadınların sükan arxasında oturmalarına heç bir kobud münasibət bəslənilmir. Hamı buna adi hal kimi, bir yerdən başqa yerə getmək üçün vasitə kimi baxır. Lakin bizdə təəssüflər olsun ki, hər şey tərsinədir. Kobud münasibət hələ də davam etməkdədir.

Hər şeyə rəğmən unutmaq lazım deyil ki, avtomobil idarə etmək gender məsələsi deyil. Belə bir gerçək var ki, peyğəmbərimiz Məhəmməd (s.ə.s.) öz zamanında dəvəyə minən qadınlara yaxşı münasibət bəsləyirdi. Nəzərə alaq ki, o zamanlar avtomobil olmadığı üçün nəqliyyat vasitəsi kimi atlardan, dəvələrdən istifadə edirdilər. Yəni ki, dinimiz qadınların sükan arxasında oturmasını qadağan etməyib. Bu da bir faktdir ki, qadınlar kişilərdən daha ehtiyatlı, daha intizamlı şəkildə maşın sürürlər.

XX əsrin əvvələrində qadınların avtomobil idarə etməsi bəzi Avropa ölkələrində olduğu kimi, Amerikada da sürətlə inkişaf edirdi. Amerika prezidenti Ruzveltin qızı Elizabet Nyuportdan Vaşinqtona qədər avtomobili tək idarə etməsi ilə yadda qalmışdır. İlk qadın avtoyarışçı Coan Nyuton Kaneoc olmuşdur. Artıq avtomobil yarışları çox məşhurlaşıb və qadın qaliblərin sayı günü-gündən artır. İlk qadın taksi surucusu isə 1915-ci ildə Ulna Rassi olmuşdur. Qadın sürürcülərə dair nümunələrdən biri də Böyük Vətən müharibəsində qadınların ağır və iri maşınları idarə etməsidir. 2007-ci ildən İranda yalnız qadınlar üçün nəzərdə tutulan avtobusların idarə edilməsi qadın sürücülərə həvalə olunmuşdur.Daha çox nümunələr göstərmək olar, bu da o deməkdir ki, qadınlar heç də kişilərdən geri qalmırlar. Səudiyyə Ərəbistanında qadınların avtomobil idarə etmələri qadağan idi, indi isə onlar günün müəyyən saatlarında idarə etmək hüququna malikdilər. Statistikaya əsasən,ölkəmizdə son illərdə sürücülük vəsiqəsinə sahib olan qadınların sayı ötən illərə nisbətən artmışdır. Yəni ki, artıq qadınlar öz güclərini hər sahədə göstərdikləri kimi, bu sahədə də göstərirlər.

**Sonda demək istəyirəm ki, zaman bütün nöqsanları aradan qaldıracaq və umidvaram ki, gələcəkdə qadınlara qarşı tətbiq edilən bu ayrı-seçkilik, bu kobud münasibət tamamilə yox olacaq, silinib gedəcək. Və qadınların avtomobil idarə etmələri adi hal kimi qəbul olunacaq.**

## QADININ AİLƏDƏ VƏ CƏMİYYƏTDƏ YERİ

Qadının yeri sadəcə mətbəx deyil, paltar yumaq deyil. Qadın kişidən heç fiziki cəhətdən zəyifliyi ilə də fərqlənmir. Qadın mənəvi və savad cəhətdən də kişidən əksik deyil. Qadını insan kimi görmək lazımdır, işçi qüvvəsi kimi yox.

Qadına mütləq ali təhsil verilməldir. Atalar deyib: "Ogulunuza ali təhsil verəndə bir adama ali təhsil vermiş olursunuz, qızınıza isə ali təhsil verəndə gələcəyin bir ailəsinə ali təhsil vermiş olursunuz." Bir qadın savad alib, savadından istifadə edərək elə bir fikir söyləyə, elə bir dəyişiklik edə bilər ki, cəmiyyəti yaxşı bir tərəfə apara bilər. Bir kişi həkim olub adamları müalicə edə bilirsə, bunu qadın da edə bilər.

O ki qaldı qadın hüququna, Avropa ölkələrində praktikada olmasa da, nəzəri baxımdan qadın və kişi bərabərliyi mövcuddur. Gürcüstanda isə bu, ən aktual problemlərdən biri olaraq qalır. Əgər qadın "qadın və kişi bərabərliyi" istəyirsə, bu ailənin, cəmiyyətin qüsurudur, cunki qadın xoşbəxt olduqda "gaqın və kişi bərabərliyi" tələb etmir.

Raziyam ki, kişi və qadın hüquqları bərabər olmalıdır, lakin qadın cəmiyyətdə hansı mövqeyə sahib olsa da, öz qadınlığını, qadın rolunu unutmalı deyil. Əgər qadın bunu unudarsa, təbiətin tarazlığı pozular. O, xoşbəxtliyi evində tapmalıdır. Heç vaxt unutmalı deyil ki, qadının ən vacib vəzifəsi, ən böyük borcu evində istilik yaratmaqdır. Ev qadının çalışdığı əsas mərkəz olmalıdır, amma ev onu sıxan, boğan çərçivə olmalı deyil.

Şənhəyat SADIQ

## GÜRCÜSTANDA BOŞANMALARIN SAYI DURMADAN ARTIR

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2016-cı ildə cəmi 25 101 nikah qeydə alınıb ki, bu da 2015-ci ildə bağlanmış nikahlardan 13, 9% azdır. Xatırladaq ki, 2015-ci ildə ölkədə 29 157 nikah bağlanmışdı.

Bu məlumatları 2014-cü ilin (31 526) və 2013-cü ilin (34 693) məlumatları ilə müqayisə etdikdə, Gürcüstan vətəndaşlarının münasibətlərini nikahla möhkəmləndirməyə maraqlarının düşdüyünü müşahidə etmək olar.

Bundan əlavə nikahın pozulması hallarında da artım qeydə alınıb. Boşanmaya dair rəqəmlər son 9 il ərzində dörd dəfəyə yaxın artıb.

2007-ci ildə rsmi olaraq 2 325 cütlük boşanıb. 2016-cı ildə isə onların sayı 9 539-a yüksəlib. Bu, 2015-ci ilin göstəricisindən 4,7% çoxdur.



2015-ci illə müqayisədə 2016-cı ildə bir ildən on ilədək davam edən nikahların sayında 6,7% artım baş verib.

Ümumi hesabda boşanmaların ən böyük faizi cəmi bir il davam edən nikahların payına düşür. Bu, göstərici 8,8%-dir.

## CECELAVA: ÖLKƏYƏ DAHA ÇOX GƏNC ALİM GƏRƏKDİR

Gürcüstan Baş Nazirinin müavini, təhsil və elm naziri Aleksandr Cecelava diplomatik korpusun nümayəndələrini təhsil sistemində həyata keçirilən islahatların detalları ilə tanış edərkən vurğulayıb ki, bizim son məqsədimiz şagirdlərin repetitorların köməyi olmadan karyeralarını inkişaf etdirmələrinə nail olmaqdır.

Nazirin sözlərinə görə, strateji planın 2020-ci ilədək həyata keçirilməsi nəzərdə tutulur.

Nazir deyib: "Məktəbəqədər təhsildə əsas məsələ tənzimləmədir. Bizim ilk dəfə məktəbəqədər təhsil haqqında qanunumuz olacaq və faktiki olaraq tərbiyəçilərin pedaqoq statusları özlərinə qaytarılacaq. Məktəbə gəlincə, biz proqramı daha maraqlı, indiki gənclərin tələbatına daha uyğun etmək, azad dərslərdən, texnologiyalardan istifadə olunması təşəbbüsləri inkişaf etdirmək, məktəbdə sağlam həyat tərzi tətbiq etmək niyyətindəyik. Nəticədə, məqsədimiz repetitorların köməyi olmadan şagirdlərin karyeralarını inkişaf etdirməsidir".

Cecelava ölkəyə daha çox gənc alimin gərək olduğunu da qeyd edib.

## GÜRCÜSTANDA TÜTÜNDƏN İSTİFADƏ OLUNMASI MƏHDUDLAŞDIRILACAQ



Gürcüstanda yaşayış binaları və cəzaçəkmə müəssisələri istisna olmaqla, bütün növ binalarda siqaret çəkmək qadağan olunacaq.

Məlumatı Tütünə Nəzarət Alyansı yayıb. Alyansın tütünün qadağan olunması ilə bağlı apardığı rəy sorğsuna görə, ictimaiyyət bu addımı müsbət qarşılayıb. Gürcüstan parlamentinin deputatları bu sorğunun nəticəsi olaraq "Tütünə nəzarət haqqında" qanuna irəli sürülən dəyişikliklər paketini ilk oxunuşda bəyəniblər. Amma dəyişikliklər barədə müzakirələrin aparılmasının vacib olduğu və müzakirlərədən sonra dəyişikliklərin qəbul ediləcəyi nəzərdə tutulur.

Tütündən istifadə 2018-ci ilin may ayından qadağan olunacaq. 2020-ci ildə stadionlarda, açıq havada və reklam bazarında tütündən istifadənin qadağan olunacağı və əks təqdirdə, istifadə edən şəxslərin yüksək məbləğdə cərimələnəcəyi gözlənilir. Qadağan olunmuş yerlərdə tütündən istifadə halları qeydə alındığı təqdirdə, hüquqi şəxsin ilk dəfə 500 lari, ikinci dəfə 2000 və mütamadi olaraq istifadə etdikdə 5000 lari cərimə olunacağı istisna edilmir.

# MİRZƏ MƏMMƏDOĞLUNUN ÖMÜR YOLUNA BİR BAXIŞ

**Bu kiçik yazıda yazıçı, tərcüməçi Mirzə Məmmədoğlunun ömür yoluna nəzər salmaq, onun fəaliyyəti ilə bağlı bəzi məqamlar barədə faktların dili ilə söhbət açmaq niyyətindəyik.**

Mirzə Məmməd oğlu Maşov 1957-ci ildə iyulun 22-də Tiflisdə anadan olub. 1987-ci ildə indiki BDU-nun filologiya fakültəsini bitirib. Əvvəl "Sovet Gürcüstanı" qəzetində müxbir və sonra uzun müddət Gürcüstan radiosunun Azərbaycan dili redaksiyasında redaktor işləyən M. Məmmədoğlu hazırda Gürcüstan İctimai televiziyasının əməkdaşıdır.

M. Məmmədoğlunun 2009-cu ildə "Qədim Tiflis" adlı etnoqrafik, sonralar "İki simin titrəməsi" ("Azərbaycan-gürcü qarşılıqlı atalar sözləri və məsəllər. İdiomatik və ortaq leksik vahidlər") adlı araşdırma kitabları və M. F. Axundov haqqında "Tiflisdə keçən ömür" adlı tarixi povesti işıq üzü görmüşdür. O, 2011-ci ildə gürcü yazıçısı Revaz İnanişvilinin "Tənhalıq nəğməsi" hekayələr toplusunu öz hesabına Azərbaycan dilində nəşr etdirmişdir. 2012-ci ildə tanınmış jurnalist Merab Beridzenin rəngli, nəfis şəkildə tərtib etdiyi "Gürcü mətbəxi" kitabını Azərbaycan dilinə tərcümə etmişdir.

2012-ci ildə Bakıda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Mirzə Fətəli Axundzadə və Gürcüstan" adlı kitabı nəşr olunmuşdur. Bu kitabın tərcüməçisi və tərtib edəni Mirzə Məmmədoğludur.

2012-cü ildə Konstantine Pağavanın "Mirzə Fətəli Axundov" və "Nizami" monoqrafiyalarını tərcümə edərək nəşr etdirmişdir. O, eləcə də Elizbar Cavelidzenin "Füzuli" monoqrafiyasını tərcümə edərək öz hesabına nəşr etdirmişdir.

Onun redaktorluğu ilə 2013-cü ildə Məmməd Arazın gürcü və Azərbaycan dillərində "80 yaş, 80 il" adlı şeirlər toplusu nəşr olunmuşdur.

2016-cı ildə onun redaktorluğu ilə Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanı, Cəlil Məmmədquluzadənin "Poşt qutusu" hekayələr toplusu və müştərək tərcüməsində isə Orxan Paşanın (Məhərrəm Qasımlının) "Yağmur qoxusu" şeirlər toplusu gürcü dilndə işıq üzü görmüşdür.

Bu yaxınlarda Bakıda "Qanun" nəşriyyatı tərəfindən



Mirzə Məmmədoğlunun "Qədim Tiflis" kitabı təkrar oxucuların ixtiyarına verilmişdir.

Bu günlərdə Elizbar Cavelidzenin "Füzuli" monoqrafiyası nəşr olunmalıdır. Eləcə də Tiflisdə "Gürcü-Azərbaycan dostluğu səlnaməsi" kitabı iki dildə ( müəllifi Giorgi Misirelidir) nəşrə hazırdır. Onun Azərbaycan dilində mətnini M. Məmmədoğlu hazırlamışdır.

"Xudu Borçalı" barəsində tarixi povesti nəşrə hazırdır. Eləcə də Mirzə Fətəlinin anadan olmasının 205-ci ildönümü ilə əlaqədar onun haqqında gürcü alim, yazıçı və ictimai xadimlərinin dövri mətbuatda gürcü və rus dillərində dərc olunan yazıları toplu şəklində nəşrə hazırdır. Qacarlar nəslndən olan, İranın Gürcüstanda konsulu olan Rza xan İrəvani barədə yazı, eləcə də onun memuarları tərcümə olunaraq nəşrə hazırdır.

Yazıları ııə gürcü mətbuatında ara-sıra çıxış edir. Bu yaxınlarda "Literaturuli qazeta"("Ədəbi Gürcüstan") qəzetində Orxan Paşanın, Əjdər Olun şeirləri, Nəriman Əbdülrəhmanlının "Gələn adam" hekayəsi, "Amier-İmier"("Güney-Qüzey") jurnalında Orxan Paşanın şeirləri dərc olunmuşdur.

Mirzə Məmmədoğlu hazırda Konstantin Pağavanın "Gürcü-Azərbaycan mədəni əlaqələrinə dair" kitabı və Naro Kolxelinin "Yağışın göz yaşları" romanı üzərində işləyir. Qeyd etmək lazımdır ki, bu roman Türkiyədə Kocaeli vilayətində Qafqaz Xalqları Mədəniyyəti və Dostluğu Assiosiyasiyasının ofisində münsiflər heyəti tərəfindən verilən mövzuda Naro Kolxelinin iki günə yazdığı romandır. Romanda dostluqdan, o cümlədən azərbaycanlı qadının gürcü qızına yardım etməsindən söhbət açılır.

Bundan başqa, Naro Kolxelinin nağıllarından ibarət kitab Bakıda nəşrini gözləyir.

Nəriman Əbdülrəhmanlının redaktorliği ilə iki cildlik "Gürcü nəsri antologiyası" nəşrə hazırlanır. Eləcə də Nəriman Əbdülrəhmanlı ilə müştərək olaraq Revaz İnanişvilinin hekayələr kitabı nəşrə hazırdır. Antologiyada bəzi müəlliflərin əsərlərinin tərcüməsi Mirzə Məmmədoğluna məxsusdur.

Vaxtilə Tiflisdə yaşayan Əbdülbaqi Zülalov barədə Bakıda nəşr olunan kitabı gürcü dilinə tərcümə edir. Sağlıq olsa, Nadir şah və Ağa Məhəmməd Şah Qacar barədə fərqli yazı üzərində işləmək istəyir. Gürcü mənbələrində onlar barədə kifayət qədər material var.

M. Məmmədoğlu 2009-ci ildən Azərbaycan Yazıçılar Birliyinin və hazırda Gürcüstan Yazıçılar İttifaqına alternativ olaraq yaradılmış Gürcüstan Yazıçıları Milli Akademiyası İdarə Heyətinin üzvüdür.

Şeirləri və publisistik yazıları gürcü və rus dillərinə tərcümə olunmuşdur.

**60 illik yubileyi ərəfəsində qələm dostumuza yeni-yeni yaradıcılıq uğurları arzulayaraq, Mirzə Məmmədoğlu ilə bağlı yazımıza nöqtə qoyuruq.**

Elsevər ELDAROĞLU

## KONSTİTUSİYA MƏHKƏMƏSİ GÜRCÜSTAN MÜSƏLMANLAR İDARƏSİNİN İDDİASINA BAXACAQ

Gürcüstan Konstitusiya Məhkəməsi Müsəlmanlar İdarəsinin Gürcüstan parlamentinə qarşı iddiasını baxılmaq üçün qəbul edib.

Gürcüstan Müsəlmanlar İdarəsi həm sünnüləri, həm də şiələri birləşdirən ictimai hüquqa malik bir hüquqi şəxs yaratmağı tələb edən bir neçə hüquq normasından şikayətçidir.

Söhbət Gürcüstan hökumətinin 2014-cü ildə qəbul etdiyi qərar barədədir. Bu qərara əsasən, sovet totalitar rejiminin dini təşkilatlara, o cümlədən də müsəlman icmasına vurduğu zərərin qismən ödənilməsi gözlənilir.

Hökumətin qərarı sünnülərin və şiələrin kompensasiya almaları üçün birlikdə ictimai hüquq malik hüquqi şəxs təsis etməsini nəzərdə tutur.

## BVF İSLAHATLARI DƏSTƏKLƏMƏK MƏQSƏDİLƏ GÜRCÜSTANA 285,3 MİLYON DOLLAR AYIRIB




Beynəlxalq Valyuta Fondu Gürcüstana 285,3 milyon dollar ayrılmasını dəstəkləyib. Məlumatı fondun mətbuat xidməti yayıb.

Qeyd olunur ki, bu proqram üç ilə nəzərdə tutulub və "hökumət tərəfindən həyata keçirilən iqtisadi islahatlara kömək" məqsədi daşıyır.

Məlumatda deyilir: "Bu proqram Gürcüstana iqtisadi zəifliyi azaltmağa və yaxşı əlaqələndirilmiş iqtisadi tədbirlər həyata keçirməyə, habelə iqtisadi inkişafa nail olmağa kömək edəcək".

Qeyd edilir ki, söhbət "təhsilin yaxşılaşdırılmasına, daha effektli dövlət idarəçiliyinin, infrastrukturun maliyyələşdirilməsinin, işgüzar mühitin yaxşılaşdırılmasının təmin edilməsinə yönəlmiş iddialı struktur islahatları"ndan gedir.

## GÜRCÜSTANDA ORTA AİLƏ ÜÇÜN YAŞAYIŞ MİNİMUMU 284 LARİDİR

Gürcüstanda 2017-ci ilin martında orta ailə üçün yaşayış minimumu 284,7 lari təşkil edib. Gürcüstan Milli Statistika Xidmətinin materiallarında belə deyilir.

Əməkqabiliyyətli kişi üçün yaşayış minimumu 169,7 lari, orta istehlakçı üçünsə yaşayış minimumu 150,3 lari olub.

Bir il qabaq isə əməkqabiliyyətli kişinin yaşayış minimumu 161,6 lari, orta istehlakçının yaşayış minimumu 143,2 lari təşkil edirdi.

2017-ci ilin yanvarında yaşayış minimumu iki nəfərdən ibarət ailə üçün 240,5 lari, üç nəfərlik ailə üçün 270,6 lari, dörd nəfərlik ailən üçün 300,7 lari, beş nəfərlik ailə üçün 338,3 lari, altı nəfərdən ibarət ailə üçün 399,9 lari olmuşdu.

Yaşayış minimumu hesablanarkən yalnız ərzaq səbətinə daxil olan ərzaqlar nəzərə alınır. Yaşayış minimumuna kommunal xərclər, nəqliyyat xərcləri və s. daxil deyil.

## RƏYİ SORUŞULANLARIN YARIDAN ÇOXU MALİYYƏ VƏZİYYƏTLƏRİNİN PİSLƏŞDİYİNİ BİLDİRİB

Beynəlxalq Respublika İnstitutunun (İRİ) keçirdiyi rəy sorğusuna əsasən, əhalinin 6%-i son 12 ay ərzində maliyyə vəziyyətlərinin yaxşılaşdığını, 56%-i isə pisləşdiyini bildirib.

Rəyi öyrənilənlərin 1%-i suallara cavab verməkdən imtina edib.

2017-ci il fevralın 22-dən martın 8-dək təsadüfi seçim yolu ilə 1501 yetkin Gürcüstan vətəndaşının rəyi soruşulub. Araşdırmanı ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi maliyyələşdirib. Tədqiatı İRİ təşkilatı həyata keçirib. Rəy sorğusunun xətası +/- 2,5% təşkil edir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 aprel 2017-cı il
№007 (45)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## QAZAXISTAN LATIN ƏLİFBASINA KEÇİR



Qazaxıstan prezidenti Nursultan Nazarbayev latın əlifbası əsasında Qazaxıstan əlifbasının vahid standartının hazırlanması ilə bağlı sərəncam imzalayıb. Qazaxıstan prezidentin "Egemen Qazaxıstan" (Müstəqil Qazaxıstan) qəzetində çap olunmuş müəllif məqaləsində deyilir: "Biz hazırlıq işlərinə başlayırıq. Hökumət qazax dilinin latın əlifbasına keçməsi üçün layihə hazırlamalıdır".

Sərəncama əsasən 2017-ci ilin sonuna kimi latın qrafikası ilə vahid Qazaxıstan əlifbası standartı hazırlanmalıdır. Prezident bildirib ki, 2025-ci ildə Qazaxıstan artıq sənədləşməni, dövri nəşrləri və dərslikləri latın əlifbası ilə çıxarmalıdır.

Xatırladaq ki, 1929-1940-cı illərdə Qazaxıstan latın əlifbasından istifadə edib. 1940-cı ildən Qazaxıstanda kiril qrafikasından istifadə olunub.

Qeyd edək ki, qazax dili XIV-XVII əsrlərdə Qızıl Ordanın süqutu zamanı Qazaxıstan ərazisində köçəri həyat tərzi keçirən qohum türk tayfalarının dili kimi formalaşıb. İlk dönəmlərdə 24 hərfdən və sözayrıcı işarələrdən ibarət run yazılarından istifadə olunsa da, sonralar Qazaxıstanda ərəb-islam təsiri ilə ərəb yazısından istifadə etməyə başladılar.

Nazarbayev ilk dönəmlərdə ölkədə latın əlifbası ilə bərabər kiril əlifbasından da istifadə olunacağını vurğulayıb.

Rusiya Dilçilik İnstitunun rəhbəri Maksim Kronqauz hesab edir ki, bu ölkənin siyasi seçimidir: "Latın qrafikalı əlifbaya keçid eyni zamanda, digər türk dillərinə və türkdilli xalqlara yaxınlaşmaq deməkdir."

Latın əlifbasına keçmək ideyası 2012-ci ilin dekabrında dərc olunmuş ölkənin strateji inkişafına dair "Qazaxıstan 2050" layihəsində səsləndirilib.

## BMT-NİN BİNASI QARŞISINDA DÖRD ŞƏRQ ALİMİNİN ABİDƏSİ UCALDILDI

BMT-nin xəbərlər xidmətinin aprelin 9-da yaydığı məlumata görə təşkilatın Vyanadakı binası qarşısında Şərqin yetişdirdiyi dörd böyük alimin abidəsi ucaldılıb. Abidə kompleksə Avropanın elm dairələrində Avitsenna kimi tanınan, orta əsrlər dövrünün ən böyük təbiblərindən biri olan Əbu Əli İbn Sinanın, böyük filosof, riyaziyyatçı, və gözəl rübailər ustası Ömər Xəyyamın, tarix, etnoqrafiya, coğrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya, fizika, mineralogiya və digər sahələrə aid 150-dən çox əsərin müəllifi Əbu Reyhan Məhəmməd ibn Əhməd Biruni əl-Xarəzminin və tibb və kimya üzrə yüzdən çox əsərin müəllifi olan Məhəmməd ibn Zəkəriyyə əl-Razinin heykəlləri daxildir.



## AFRİKADA ALBİNOSLARI OVLAYIRLAR



Son on il ərzində Afrikanın 28 ölkəsində albinizmdən əziyyət çəkən 600 uşağa və böyüyə hücum faktı qeydə alınıb.

İki il əvvəl Tanzaniyada iki nəfər naməlum şəxs on yaşlı albinos oğlanın sol əlini kəsib. Bu ölkədə də, bir sıra Afrika dövlətində olduğu kimi, albinosların bədənlərinin möcüzəvi müalicə xüsusiyyətinə və bir çox xəstəlikdən, o cümlədən də QİÇS-dən qurtarma gücünə malik olması barədə inam geniş yayılıb.

Təəccüblü deyil ki, albinoslara qarşı həqiqi sürək ovu təşkil edilir, onları oğurlayır, şikəst edir və ya gündüz-günorta çağı öldürürlər. Bu dəhşətli təcrübə geniş miqyas aldığından Tanzaniya hökuməti albinos uşaqları ölkə üzrə 13 xüsusi internatda yerləşdirmək qərarına gəlib.

## NOVATOR RƏSSAMA HƏSR OLUNMUŞ KİTAB İŞIQ ÜZÜ GÖRDÜ




Tbilisidə tanınmış rəssam Rizvan İsmayılın həyat və fəaliyyətini əks etdirən "Zərrədən Günəşə" adlı kitab işıq üzü görüb. Kitabın müəllifi şair İbrahimxəlildir.

Kitaba rəssamın yaradıcılığından bəhs edən esselər, rəylər, təəssüratlar, şeirlər, eləcə də rəssamın müxtəlif mətbuat orqanlarına verdiyi müsahibələr, habelə onun fəaliyyətini canlandıran fotoşəkillər daxil edilib.

"Zərrədən Günəşə" Rizvan İsmayılın rəngkarlıq və qrafika sahələrində yaratdığı uğurlu sənət əsərlərinin tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Rəssamın müxtəlif illərdə Tbilisidə, İstanbulda, Bakıda, Moskvada və Parisdə (Luvr muzeyində) keçirilmiş sərgiləri barədə məlumatlar onun yaradıcılığına ayna tutmaq baxımından maraq doğurur.

Kitabda rəssamın yenlikçi, novator sənətkar olması, numerologizm və ya əbcədizm adlandırdığı yeni üslubun müəllifi olması barədə də məlumatlara yer verilir.

## GÜRCÜSTANDA AVİATAKSİLƏR İSTİFADƏYƏ VERİLDİ



"Adjara Group Hospitality" ("Adjara qonaqpərvərlər qrupu") "Aviator" aviataksilərinin istismarına başlayıb.

Yeni aviataksilər həm daxili, həm də beynəlxalq reyslər həyata keçirəcək.

"Beechcraft king Air C90 GTx" taksi təyyarələri Tbilisi beynəlxalq aeroportundan Gürcüstanın bütün yerli aeroportlarına, eləcə də Bakı, İrəvan, İstanbul, Trabzon və digər regionlara uçuşlar həyata keçirəcək. Şirkət gələcəkdə reyslərin sayının artırılmasını və yeni təyyarə parkının yaradılmasını da nəzərdə tutur.

Yeni, müasir tipli avadanlıqlarla tam təchiz olunmuş təyyarə taksilər 5 nəfər sərnişin üçün nəzərdə tutulub. Uçuş zamanı sərnişinlərin təhlükəsizliyi, biznes-klass tələblərinə cavab verən bütün tələblər yerinə yetiriləcək.

## 166 AVROLIQ AVTOMOBİLLƏRİN İSTEHSALINA BAŞLANILIB

Nüfuzlu "Volvo" avtomobil brendi uşaqlar üçün maşın modeli hazırlayıb.

Şirkət tarixində ilk dəfə olaraq belə bir modelin hazırlanmasına start verib. Qiyməti 166 avroya olan bu maşınlar 3-5 yaşlı uşaqlar üçün nəzərdə tutulub.

Maşının dizaynı "Sedan S90" modelinə bənzədilib. Yalnız gümüşü rəngdə olan bu maşınları internet vasitəsi ilə də almaq mümkündür.

## BAŞSAĞLIĞI

"Yeni Yol" qəzetinin kollektivi "Təhsil" qəzetinin redaktoru Abay Paşayevə atası

**Şəmkir Bayram oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

*Redaktor*:
Afiq Muxtaroğlu
*Yayım Direktoru*:
Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.